# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 87

Bakı şəhəri "02" sentyabr 2014-cü il

**"Ana və uşaqların sağlamlığının yaxşılaşdırmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2014-cü il tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Ana və uşaqların sağlamlığının yaxşılaşdırmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında qeyd olunan icraçı qurumların rəhbərlərinə tapşırılsın ki, müəyyən olunmuş müddət ərzində Tədbirlər Planında nəzərdə tutulan işlərin həyata keçirilməsi təmin olunsun və nəticəsi barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişində "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üçün tələb olunan vəsaitin ayrılması nəzərdə tutulsun.

4. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
02.09. 2014-cü il tarixli
87 nömrəli əmri ilə təsdiq edilmişdir

**"Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı**

| № | Tədbirin adı | Görülən işlər | Icra müddəti | İcraçı qurumlar |
|---|---|---|---|---|
| | **1. Perinatal yardımın səviyyələri üzrə tibbi xidmətin yaxşılaşdırılması** | | | |
| 1.1 | Respublikanın şəhər və rayonlarında doğuşayardım xidməti göstərən aşağıdakı tibb müəssisələrinin təmiri və tibbi avadanlıqlarla təchiz edilməsi: | Respublikanın şəhər və rayonlarında perinatal yardım xidməti göstərən tibb müəssisələrinin yenidən qurulması və təmiri işinin, həmçinin tibbi avadanlıqla təchiz edilməsinin həyata keçirilməsi: | | |
| | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu; | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu; | 2014-2015 | SOŞİPŞ, TOMM |
| | Mingəçevir Şəhər Rayonlararası Doğum Evi; | Mingəçevir Şəhər Rayonlararası Doğum Evi; | 2015 | SOŞİPŞ, TOMM |
| | Salyan Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | Salyan Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | 2015-2016 | SOŞİPŞ, TOMM |
| | Masallı Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | Masallı Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | 2014-2015 | SOŞİPŞ, TOMM |
| | Goranboy Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | Goranboy Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | 2015-2016 | SOŞİPŞ, TOMM |
| | Zərdab Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | Zərdab Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi; | 2014-2015 | SOŞİPŞ, TOMM |
| | Qəbələ Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi | Qəbələ Rayon Mərkəzi Xəstəxanasının mamalıq-ginekologiya şöbəsi | 2015-2016 | SOŞİPŞ, TOMM |

| | | | | |
|---|---|---|---|---|
| 1.2 | Yenidoğulmuşlara, xüsusən az çəkili körpələrə reanimasiya yardımının göstərilməsi üçün doğuşayardım müəssisələrinin zəruri tibbi avadanlıqla, dərman və tibbi ləvazimatlarla təchiz olunma işinin təkmilləşdirilməsi | -doğuşayardım müəssisələrinin səviyyələrinə uyğun olaraq zəruri dərman preparatlarının və müvafiq tibbi avadanlıqlarının siyahısının müəyyənləşdirilməsi | 2014 | TYTŞ, İTM |
| | | -Respublikanın şəhər və rayon səhiyyə idarə və müəssisələrindən yenidoğulmuşlara, xüsusən az çəkili körpələrə reanimasiya yardımının göstərilməsi üçün doğuşayardım müəssisələrinin zəruri tibbi avadanlıqla, dərman və tibbi ləvazimatlarla tələbnamə əsasında təchizatının təşkili və həyata keçirilməsi | 2014-2020 | TYTŞ, İTM |
| 1.3 | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında, respublika və regional perinatal mərkəzlərində səyyar konsultativ xidmətinin təşkili və onların xüsusiləşdirilmiş nəqliyyat vasitələri ilə təmin edilməsi. | -Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında, respublika və regional perinatal mərkəzlərinin səyyar və distansion konsultativ diaqnostik xidmətinin təşkili | 2014-2015 | TYTŞ, ETMGİ, RPM, RKX |
| | | -qeyd olunan müəssisələrin xüsusiləşdirilmiş nəqliyyat vasitələri ilə təmin edilməsi. | 2014-2015 | TYTŞ, İTM |
| | **2. Antenatal yardım xidmətlərinin təkmilləşdirilməsi** | | | |
| 2.1 | Antenatal yardım göstərən tibb müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi | Antenatal yardım göstərən tibb müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi işinin təşkili | 2014 | TYTŞ |
| 2.2 | Antenatal yardım göstərən tibb müəssisələrinin tibbi avadanlıq və cihazlarla təchizatının yaxşı-laşdırılması | Antenatal yardım göstərən tibb müəssisələrinin tibbi avadanlıq və cihazlarla təchizatının təmin edilməsi və yenilənməsi | 2014-2015 | TYTŞ, İTM |

| | | | | |
|---|---|---|---|---|
| **3. Sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsinin təşkil edilməsi** | | | | |
| 3.1 | Sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsi üzrə kliniki protokolların və metodik sənədlərin hazırlanması | -sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsi üzrə zəruri kliniki protokolların təkmilləşdirilməsi | 2014-2018 | TYTŞ, İSİM, ETPİ |
| | | -sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması və onlara yardımın göstərilməsi üzrə metodik tövsiyələrin hazırlanmsı | 2015-2016 | TYTŞ, İSİM, ETPİ |
| 3.2 | Perinatal diaqnostika üzrə klinik protokolların hazırlanması və antenatal yardım xidməti göstərən tibb müəssisələrinin işçiləri üçün müvafiq təlimlərin keçirilməsi | -perinatal diaqnostika üzrə klinik protokolların təkmilləşdirilməsi | 2014-2018 | İSİM, ETMGİ, ETPİ |
| | | -antenatal yardım xidməti göstərən tibb müəs-sisələrinin işçilərinə təlimlərin keçirilməsinin təşkili | mütəmadi | İSİM, ETMGİ, ETPİ |
| 3.3 | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda anadangəlmə patologiyaların profilaktikası məqsədilə preimplantasion və tibbi-genetik müayinələrin təşkil edilməsi | Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda anadangəlmə patologiyaların profilaktikası məqsədilə preimplantasion və tibbi-genetik müayinələrin təşkil olunması | 2014-2015 | ETMGİ, RPM, İTM |
| 3.4 | Yenidoğulmuşlar arasında inkişaf qüsurlarının erkən aşkarlanması məqsədi ilə neonatal müayinələrin (skrininqlərin ) aparılması | Neonatoloji xidmət göstərən tibb müəssisələrində yenidoğulmuşlar arasında inkişaf qüsurlarının erkən aşkarlanması məqsədi ilə skrininqlərin müəyyən edilməsi və müayinələrin aparılması işinin təşkili | mütəmadi | ETMGİ, ETPİ |
| **4.Ana və uşaq sağlamlığının qorunması sahəsində kadr hazırlığının təkmilləşdirilməsi** | | | | |
| 4.1 | Ana və uşaqların sağlamlığının qorunması sahəsində çalışan həkim və orta tibb işçilərinin davamlı tibbi təhsilinin (təlimlərin və klinik təcrübənin) həyata keçirilməsi | Ana və uşaq sağlamlığının qorunması sahəsində çalışan həkim və orta tibb işçiləri üçün təlimlərin keçirilməsi | 2014-2020 | KETŞ, ADHTİ, RKUX 2 nömrəli BBTK |
| 4.2 | Ana və uşaqların sağlamlığının qorunması sahəsində xidmət göstərən tibb işçilərinin xarici ölkələrdə müasir texnologiyalarla işləmək vərdişlərinin təkmilləşdirilməsi | -ana və uşaq sağlamlığının qorunması sahəsində xidmət göstərən tibb işçilərinin bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi | 2014-2020 | KETŞ, BƏŞ |
| | | -mütəxəssislərin xaricdə təlim kurslarına göndərilməsi | 2014-2020 | KETŞ, BƏŞ |

| | | | | |
|---|---|---|---|---|
| 4.3 | Uşaqların qidalandırılmasına aid yeni təlimatın hazırlanması və tibb işçiləri üçün müvafiq təlimlərin keçirilməsi | -Uşaqların qidalandırılmasına aid yeni təlimatın hazırlanması və tibb işçilərinə müvafiq təlimlərin keçirilməsinin təşkili | 2014-2015 | TYTŞ, İSİM,ETPİ,RKUX |
| | | -zəruri hallarda ana südünü əvəz edən qidalanma barədə metodik tövsiyyələrin hazırlanması və tətbiqi | 2014-2015 | TYTŞ, ETPİ, İSİM |
| | **5. Diridoğulmanın Beynəlxalq Meyarlarının ölkə üzrə tətbiq edilməsi** | | | |
| 5.1 | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar tənzimləyici normativ hüquqi aktların hazırlanması | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsinin hazırlanması | 2014 | TYTŞ |
| 5.2 | Səhiyyə sahəsində rəsmi statistika hesabatlarının və tibbi qeydiyyat formalarının diridoğulmanın beynəlxalq meyarlarına uyğunlaşdırılması | Diridoğulmanın beynəlxalq meyarlarına əsasən səhiyyə sahəsində rəsmi statistika hesabatlarının və tibbi qeydiyyat formalarının işlənilməsi | 2014-2015 | İSİ |
| 5.3 | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar klinik protokolların və müvafiq təlimatların işlənib hazırlanması | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar klinik protokolların və müvafiq təlimatların təkmilləşdirilməsi | 2014-2015 | TYTŞ, İSİM |
| 5.4 | Tibbi təhsil sahəsində tədris proqramlarının diridoğulmanın beynəlxalq meyarlarına uyğun olaraq təkmilləşdirilməsi | Diridoğulmanın beynəlxalq meyarları ilə bağlı mövzuların tədris proqramlarına daxil edilməsi | 2014-2015 | KETŞ, ATU, ADHTİ |
| 5.5 | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar ictimai maarifləndirmə işinin həyata keçirilməsi | Diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar ictimai maarifləndirmə işinin təşkili | 2014-2016 | İSİM, MX |
| | **6. Ana və uşaqların sağlamlığının qorunması sahəsində monitorinq sisteminin yaradılması** | | | |
| 6.1 | Hamilə qadınların vahid elektron registrinin yaradılması | Hamilə qadınlara sistemli nəzarətin aparılması məqsədilə vahid elektron registrinin yaradılması | 2014-2015 | TYTŞ, İSİM, SİM |
| 6.2 | Reproduktiv sağlamlıq xidmətinin vahid elektron sisteminin yaradılması | Reproduktiv sağlamlıq xidmətinin vahid elektron sisteminin yaradılması | 2014-2015 | TYTŞ, İSİM, SİM |

| | | | | |
|---|---|---|---|---|
| 6.3 | Doğuşayardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinq və qiymətləndirmə sisteminin yaradılması və həyata keçirilməsi | -doğuşayardım tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin davamlı monitorinqlərin həyata keçirilməsi | mütəmadi | TYTŞ, İSİM, ETMGİ |
| | | -qiymətləndirmə mexanizmi vasitəsilə monitorinqlərin nəticələrinin təhlili | mütəmadi | TYTŞ, İSİM, ETMGİ |
| 6.4 | Uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının yaxşılaşdırılması məqsədi ilə dispanserizasiyanın həyata keçirilməsinə dövlət nəzarətinin təmin edilməsi | -uşaqlar arasında xəstələnmə hallarının azaldılması, xəstəliklərin erkən aşkar edilməsi, onların sağlamlığının yaxşılaşdırılması məqsədilə dispanserizasiyanın həyata keçirilməsi üzrə monitorinqlərin aparılması | mütəmadi | TYTŞ, İSİM, ETPİ, RKUX |
| | | -monitorinqlərin nəticələrərinə əsaslanaraq dispanserizasiya işinin vəziyyəti barədə hesabatların hazırlanması | mütəmadi | TYTŞ, İSİM, ETPİ, RKUX |
| 6.5 | Dövlət Proqramının icrasına dair monitorinqlərin keçirilməsi və icmal hesabatlarının hazırlanması | -Dövlət Proqramın icrasına dair monitorinqlərin həyata keçirilməsi | mütəmadi | TYTŞ, ETPİ, İSİM, RPM, RKUX, ETMGİ, RKX |
| | | -monitorinqlərin nəticələrinin təhlili əsasında icmal hesabatlarının hazırlanması | mütəmadi | TYTŞ, İSİM, RKUX, ETPİ, ETMGİ |
| | **7. Ana və uşaq sağlamlığının qorunması sahəsində ictimai maarifləndirmənin həyata keçirilməsi** | | | |
| 7.1 | Reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə maarifləndirmə işinin həyata keçirilməsi | Reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə maarifləndirmə işinin həyata keçirilməsinin təşkili | mütəmadi | TYTŞ, ETMGİ, İSİM, MX |
| 7.2 | Uşaqların ana südü ilə qidalandırılması barədə ictimai maarifləndirmə işinin həyata keçirilməsi | Uşaqların ana südü ilə qidalandırılması barədə ictimai maarifləndirmə işinin təşkili | Mütəmadi | TYTŞ, MX, ETPİ, RKUX, ETMGİ |